# Dərsdinləmənin tədris prosesində rolu və məktəb səviyyəsində inkişafyönlü tətbiq mexanizmləri

Müasir təhsil sistemində müəllimlərin peşəkar inkişafı və tədris prosesinin keyfiyyətinin yüksəldilməsi metodik xidmətin əsas prioritetlərindəndir. Metodik xidmət yalnız idarəetmə funksiyası daşımır — o, məktəbdaxili peşəkar öyrənmə mühitini qurmaq, müəllimi dəstəkləmək və məktəbin təlim nəticələrini yaxşılaşdırmaq üçün sistemli mexanizmləri özündə birləşdirir.

Bu mexanizmin mərkəzində isə **dərsdinləmə** dayanır.

Dərsdinləmə, müəllimin dərs prosesini real zamanlı olaraq izləməyi, müşahidələrə əsaslanan təhlil etməyi və inkişafyönümlü rəy təqdim etməyi ehtiva edən bir fəaliyyət növüdür. Dərsdinləmə yalnız müəllimin güclü tərəflərinin və inkişaf sahələrinin müəyyənləşdirilməsinə deyil, həm də metodik dəstəyin fərdiləşdirilməsinə, müəllimlər arasında reflektiv öyrənmə mədəniyyətinin formalaşmasına və tədris keyfiyyətinin davamlı şəkildə artırılmasına xidmət edir. Bu prosesin məktəbdə tətbiqi yalnız müəllimlərin fərdi inkişafını deyil, həm də məktəb səviyyəsində təlimin keyfiyyətinin ümumi şəkildə yaxşılaşdırılmasına töhfə verir.

**Dərsdinləmənin mahiyyəti və məqsədləri.**
Dərsdinləmənin əsas məqsədi müəllimin dərs zamanı tətbiq etdiyi metodları, şagirdlərlə ünsiyyətini, öyrənmə mühiti yaratmaq bacarığını və təlim nəticələrinə doğru irəliləyişini obyektiv meyarlarla qiymətləndirmək və müəllimə inkişafyönümlü rəy verməkdir.

Dərsdinləmə aşağıdakı nəticələrə xidmət edir:

- müəllimin güclü və inkişaf etdiriləcək sahələrinin müəyyənləşdirilməsi;
- təlimin keyfiyyətinin artırılması və şagird nailiyyətlərinin dəstəklənməsi;
- müəllimin öz fəaliyyətinə reflektiv yanaşmasının təşviqi;
- ehtiyacəsaslı metodik dəstəyin planlaşdırılması və izlənməsi;
- məktəbdə peşəkar əməkdaşlıq mühitinin gücləndirilməsi.

**Dərsdinləməni kimlər həyata keçirə bilər?**
Dərsdinləmə yalnız qiymətləndirmə üçün deyil, müəllimə dəstək vermək, refleksiya yaratmaq və peşəkar inkişafı təşviq etmək məqsədilə aparılmalıdır. Bu baxımdan prosesə aşağıdakı şəxslər cəlb oluna bilər:

- məktəb rəhbərliyi (direktor və direktor müavinləri);
- metodik xidmətin həyata keçirilməsində bilavasitə iştirak edən mütəxəssislər, o cümlədən məktəbdaxili və aparıcı metodistlər;
- təcrübəli müəllimlər və mentorlar (zəruri hallarda);
- xüsusi ehtiyac yarandıqda xarici ekspertlər və ya təlimçilər.

Qeyd edilən tərəflərin hər biri dərsdinləmə prosesində mühüm rol oynasa da, bu məqalədə əsas diqqət dərsdinləmənin **metodistlər və məktəb rəhbərliyi tərəfindən həyata keçirilməsi** təcrübəsinə yönəldilmişdir. Digər tərəflərin — təcrübəli müəllimlərin, mentorların və zəruri hallarda cəlb olunan xarici ekspertlərin — bu prosesdəki rolu isə növbəti mərhələlərdə ayrıca təhlil oluna biləcək istiqamətlər kimi nəzərdə tutulur.

**1. Direktor və direktor müavinlərinin dərsdinləmə aparmasının əhəmiyyəti**
Məktəb rəhbərliyinin dərsdinləmə prosesinə sistemli şəkildə cəlb olunması təlim prosesinin strateji idarəedilməsində mühüm rol oynayır. Rəhbərlik tərəfindən aparılan dərsdinləmələr nəzarət məqsədi daşımamalı, məktəbin inkişaf istiqamətlərini müəyyənləşdirən, hədəfli dəstək qərarlarını əsaslandıran idarəetmə aləti kimi tətbiq edilməlidir. Bu yanaşma məktəb səviyyəsində qəbul edilən qərarların real dərs müşahidələrinə əsaslanmasını təmin edir.

**Strateji qərarların real müşahidələrə əsaslanması**
Direktor və direktor müavinləri dərs prosesini birbaşa müşahidə etdikdə məktəbdə təlimin real vəziyyəti barədə obyektiv təsəvvür formalaşdırırlar. Bu müşahidələr illik fəaliyyət planlarının, məktəbdaxili inkişaf planlarının və fənn/sinif üzrə prioritetlərin yalnız hesabatlara deyil, real dərs praktikalarına əsaslanaraq qurulmasına imkan verir.
**Nümunə:** Bir neçə sinifdə dərsdinləmə zamanı formativ qiymətləndirmənin zəif tətbiq olunduğu müşahidə edilir və illik fəaliyyət planına bu mövzuda metodik görüşlər və daxili təlimlər daxil olunur.

**Erkən müdaxilə və hədəfli dəstək**
Rəhbərlik dərsdinləmə zamanı təlim nəticələri–fəaliyyət uyğunluğu, tapşırıq dizaynı, vaxtın idarə olunması kimi məsələlərdə boşluqları vaxtında görür və metodistlə birgə hədəfli dəstək planlaşdırır.
**Nümunə:** Direktor müavini dərs planında nəticələrlə fəaliyyət arasında uyğunluq qura bilməyən müəllimləri müəyyən edir, metodistə məlumat verir və həmin müəllimlər üçün qısa müdaxilə planı hazırlanır.

**Peşəkar etimadın formalaşması**
İnkişafyönümlü yanaşma müəllimlərdə "nəzarət" qorxusu deyil, dəstək və əməkdaşlıq hissi yaradır. Dərsdinləmədən sonra qısa reflektiv söhbət (güclü tərəflər + 1–2 inkişaf tövsiyəsi + növbəti addım) müəllimdə motivasiyanı artırır.




**Qısa müddətli inkişaf hədəflərinin müəyyənləşdirilməsi**
Rəhbərliyin müşahidəsi müəllimlə birgə 2–4 həftəlik, ölçüləbilən hədəflərin razılaşdırılmasına imkan yaradır.
**Nümunə:** Növbəti dərsdə ən azı iki fərqli çətinlik səviyyəsində tapşırıq tətbiq etmək hədəfi qoyulur və növbəti dinləmədə nəticə izlənir.

**2. Metodistin dərsdinləmə aparmasının əhəmiyyəti**
Metodist dərsdinləmə vasitəsilə müəllimə ən yaxın peşəkar dəstək funksiyasını yerinə yetirir. Onun rolu həm müşahidəçi, həm təhlilçi, həm də mentor kimi xüsusilə əhəmiyyətlidir. Metodistin dərsdinləmə aparması aşağıdakı səbəblərə görə vacibdir:

• **Obyektiv peşəkar baxış**: Metodist dərsi pedaqoji meyarlar əsasında dəyərləndirir və real vəziyyəti dəqiq müəyyən edir.
• **İnkişaf ehtiyacının müəyyənləşdirilməsi**: Müşahidələr müəllimin hansı sahələrdə güclü olduğunu və hansı istiqamətlərdə dəstəyə ehtiyacı olduğunu göstərir.
• **Fərdiləşdirilmiş metodik dəstək**: Nəticələrə uyğun olaraq metodist müəllim üçün konkret tövsiyələr verir, resurslar təklif edir və inkişaf planının hazırlanmasına dəstək olur.
• **Müəllim–metodist əməkdaşlığının möhkəmlənməsi**: Dərsdinləmə peşəkar dialoq və etimad yaradır, öyrənmə mədəniyyətini gücləndirir.
• **Tədris prosesinin keyfiyyətinin yüksəldilməsi**: Müəllimlərin ardıcıl peşəkar inkişafı təlimin effektivliyinin artmasına və şagird nailiyyətlərinin yaxşılaşmasına müsbət təsir göstərir.

Hazırda **"Müəllim İnkişaf Portalı"** metodik xidmətin icra edildiyi ümumi təhsil müəssisələri üçün funksional şəkildə tətbiq olunur və əsasən bu məktəblərdə dərsdinləmə, rəyvermə, öyrənmə ehtiyaclarının müəyyənləşdirilməsi və ehtiyacəsaslı resurslara çıxış proseslərini əhatə edir. Portal metodik xidmət strukturlarının fəaliyyətini sistemləşdirməklə yanaşı, müəllimlərin peşəkar inkişafının planlı və izlənilə bilən şəkildə təşkilinə xidmət edir.

Portalın inkişaf perspektivi nəzərə alınaraq onun mərhələli şəkildə **ölkə üzrə bütün ümumi təhsil müəssisələri üçün əlçatan olması** planlaşdırılır. Bu yanaşma metodik dəstəyin yalnız məhdud çərçivədə deyil, ölkə miqyasında vahid standartlar əsasında həyata keçirilməsinə, müəllimlərin inkişaf ehtiyaclarının daha geniş miqyasda müəyyənləşdirilməsinə və tədris keyfiyyətinin sistemli şəkildə yüksəldilməsinə imkan yaradacaqdır.
Metodik xidmət çərçivəsində "Müəllim İnkişaf Portalı" dərsdinləmə prosesinin rəqəmsal idarə edilməsini təmin edən mühüm vasitədir. Portal vasitəsilə:
• dərsdinləmə qeydə alınır və standartlaşdırılmış meyarlarla sistemləşdirilir;
• müəllimə inkişafyönümlü rəy yazılır;
• öyrənmə ehtiyacı müəyyənləşdirilir;
• ehtiyaca uyğun resurslar (video, metodik material, təlim paketi və s.) təqdim olunur;
• inkişafın dinamikası izlənir və hesabatlılıq güclənir.

Bu yanaşma dərsdinləməni təsadüfi praktikadan çıxarıb, planlı, izlənilə bilən və nəticəyönümlü inkişaf mexanizminə çevirir.

## Dərsdinləmə prosesinin ardıcıllığı necə olmalıdır?

**Dərsdinləmə aşağıdakı mərhələlər üzrə həyata keçirildikdə daha effektiv nəticə verir:**
**Dərsdinləmə prosesinin ardıcıllığı**

Dərsdinləmə prosesi planlı və ardıcıl mərhələlər üzrə təşkil edildikdə müəllimin peşəkar inkişafına real töhfə verir və metodik xidmətin effektivliyini artırır. Bu proses aşağıdakı mərhələlər üzrə həyata keçirilir.

### 1) Hazırlıq mərhələsi

Hazırlıq mərhələsində dərsdinləmənin məqsədi və çərçivəsi əvvəlcədən müəyyənləşdirilir. Dinləniləcək dərsin fənni, mövzusu, sinfi və tarixi dəqiqləşdirilir, müşahidənin əsas məqsədi və meyarları müəllimlə qarşılıqlı razılaşma əsasında müəyyən olunur. Bu mərhələdə müşahidə vərəqi hazırlanır və yalnız seçilmiş, məhdud sayda meyarlara fokuslanmaqla müşahidənin müəllim üçün gərginlik yaratmadan aparılması təmin edilir.

### 2) Müşahidə mərhələsi

Müşahidə mərhələsində dərs prosesi müdaxilə edilmədən izlənilir. Müşahidəçi dərsin bütün mərhələlərində müəllim və şagird fəaliyyətini sistemli şəkildə qeydə alır. Qeydlər dərsin planlaşdırılması, təlim nəticələrinin təqdim olunması, şagird fəallığı, tapşırıqların

təşkili, istifadə olunan resurslar və vaxt bölgüsü kimi göstəricilər üzrə aparılır. Bu mərhələdə aparılan qeydlər şərh və qiymətləndirmədən uzaq, yalnız müşahidə olunan faktlara əsaslanır.

**3) Təhlil mərhələsi**

Müşahidədən sonra qeydlər sistemləşdirilir və təhlil edilir. Təhlil zamanı dərsin güclü tərəfləri və inkişaf etdirilməsi zəruri olan sahələr müəyyənləşdirilir. Nəticələr ümumi mühakimələrə deyil, konkret müşahidə faktlarına əsaslanır. Bu yanaşma veriləcək rəyin obyektiv və əsaslandırılmış olmasını təmin edir, eyni zamanda müəllimin rəyə açıq münasibət formalaşdırmasına şərait yaradır.

**4) Rəy və reflektiv söhbət mərhələsi**

Rəy və reflektiv söhbət mərhələsi dərsdinləmə prosesinin ən həssas və eyni zamanda ən təsiredici mərhələsidir. Bu mərhələdə əsas məqsəd müəllimin fəaliyyətini qiymətləndirmək deyil, onun peşəkar inkişafını dəstəkləyən müsbət və konstruktiv ünsiyyət mühiti yaratmaqdır. Buna görə də rəyvermə prosesi qarşılıqlı hörmətə, etimada və açıq dialoqa əsaslanmalıdır.

Rəyvermə fəaliyyəti qeyri-planlı və epizodik xarakter daşımamalı (5 dəqiqəlik fasilədə, qısa səsli mesaj şəklində və s. olmamalıdır), strukturlaşdırılmış və məqsədyönlü şəkildə təşkil edilməlidir. Bu məqsədlə rəy söhbəti üçün ayrıca zaman və uyğun mühit ayrılmalı, beləliklə müəllimin təqdim olunan geribildirimi dərk etməsi, refleksiya aparması və inkişafyönlü qərarlar formalaşdırması təmin olunmalıdır.

Rəy zamanı ilk növbədə müşahidə edilən müsbət məqamlar vurğulanmalı, müəllimin güclü tərəfləri konkret müşahidələrə əsaslanaraq qeyd edilməlidir. Daha sonra inkişaf etdirilməsi zəruri olan sahələr diqqətə çatdırılmalı və bu məqamlar ümumi ifadələrlə deyil, faktlara söykənərək təqdim edilməlidir.

Bu mərhələdə **aydınlaşdırıcı və reflektiv sualların istifadəsi** xüsusi əhəmiyyət daşıyır. Rəy monoloq formasında deyil, müəllimi düşünməyə və öz fəaliyyətini təhlil etməyə sövq edən dialoq şəklində qurulmalıdır. Bu yanaşma müəllimi müdafiə mövqeyinə keçirmədən refleksiyaya cəlb edir və dəyişikliklərin müəllimin öz daxili qərarı kimi formalaşmasına şərait yaradır.

Rəy və reflektiv söhbətin sonunda müəllimlə birlikdə **konkret və qısa müddətli inkişaf addımları** razılaşdırılmalı, növbəti mərhələdə nəyə diqqət yetiriləcəyi aydın şəkildə müəyyənləşdirilməlidir. Beləliklə, rəyvermə prosesi formal prosedurdan çıxaraq inkişafyönlü, məqsədli və nəticəyönlü peşəkar ünsiyyət mexanizminə çevrilir.

**5) İzləmə mərhələsi**

İzləmə mərhələsi dərsdinləmə prosesinin davamlılığını təmin edən əsas mərhələdir. Verilən tövsiyələrin və razılaşdırılmış inkişaf hədəflərinin növbəti dərslərdə tətbiqi izlənilir. Növbəti müşahidələr zamanı əldə olunan dəyişikliklər qiymətləndirilir və inkişaf planı zərurətə uyğun olaraq yenilənir. Bu mərhələ dərsdinləməni təkcə müşahidə aktı deyil, davamlı peşəkar inkişaf mexanizmi kimi formalaşdırır.

Dərsdinləmə nəticələrinin təhlili yalnız fərdi rəyvermə ilə yekunlaşmamalı, müşahidə olunan istiqamətlər əsasında **məktəb səviyyəsində metodik görüşlərin**




**planlaşdırılmasına** əsas yaratmalıdır. Dərsdinləmə zamanı müəyyən edilən ümumi inkişaf ehtiyacları metodik görüşlərin mövzu və məzmununun formalaşdırılmasında əsas meyar kimi çıxış etməli, beləliklə fərdi müşahidələr kollektiv peşəkar inkişaf fəaliyyətlərinə çevrilməlidir.

***Metodik görüşlərin təşkili, məqsədyönlü planlaşdırılması və dərsdinləmə nəticələri ilə əlaqələndirilməsi isə ayrıca və geniş təhlil tələb edən mühüm istiqamət olduğundan, bu mövzuya həsr olunmuş ayrıca metodik yazıda ətraflı şəkildə təqdim olunması nəzərdə tutulur.***

**Dərsdinləmə sonrası konstruktiv rəyin verilməsi**

Konstruktiv rəy inkişafı stimullaşdıran, müəllimi müdafiə mövqeyinə salmayan və konkret müşahidəyə əsaslanan şəkildə verilməlidir. Praktikada aşağıdakı prinsiplər effektiv hesab olunur:

• pozitiv və təşviqedici atmosfer;
• “sandviç” yanaşması (müsbət–inkişafyönümlü–müsbət);
• ümumiləşdirmədən çəkinmək və faktlara istinad etmək;
• ittihamdan uzaq, müşahidə əsaslı dil;
• alternativ təkliflər və növbəti addımın razılaşdırılması;
• dialoq yaradan aydınlaşdırıcı suallar (“Sizcə bu hissədə nəyi fərqli etmək olardı?”).

**İstifadə oluna bilən alətlər**

• 3–5 meyar üzrə sadələşdirilmiş müşahidə forması (planlaşdırma, nəticə uyğunluğu, şagird fəallığı, qiymətləndirmə, vaxt-resurs);
• qısa refleksiya sualları (“Bu dərsdə ən uğurlu məqam nə idi?”, “Növbəti dərsdə nəyi fərqli edəcəksiniz?”);
• 1 səhifəlik rəy forması (güclü tərəflər, inkişaf tövsiyəsi, növbəti addım).

**Dərsdinləmənin dövri xarakter daşımasının zərurəti nədir?**

Dərsdinləmə vahid müşahidə ilə yekunlaşmamalıdır. Tədris prosesi dinamik olduğundan müəllimin inkişaf trayektoriyasını obyektiv izləmək üçün dərsdinləmənin davamlı, planlı və dövri aparılması zəruridir. Dövri dərsdinləmə rəyin təsirini ölçüləbilən edir və dəyişikliklərin real nəticələrini üzə çıxarır.

• **İnkişaf dinamikası izlənilir**: Müəllimin davranış və metodlarında dəyişikliklər zaman üzrə müqayisə olunur.
Real nümunə: İlkin müşahidədə şagirdlərin iştirak səviyyəsi aşağıdır; növbəti 2–3 müşahidədə qrup işi və açıq sualların artması nəticəsində iştirak yüksəlir.
Alətlər: fərdi inkişaf izləmə cədvəli, müqayisəli təhlil forması, portalda inkişaf göstəriciləri.

• **Hədəflər mərhələli müəyyənləşdirilir:** Böyük məqsədlər kiçik, real addımlara bölünür (məs.: nəticənin yazılması → fəaliyyətlərin uyğunluğu → qiymətləndirmənin uyğunluğu).
Alətlər: 2–4 həftəlik inkişaf planı, SMART hədəf forması, metodist–müəllim razılaşdırma vərəqi.

• **Rəyin təsiri ölçülür:** Tövsiyələrin tətbiqi növbəti dərsdinləmədə müşahidə olunur.
Real nümunə: “Düşündürən sualların” artırılması tövsiyəsi verilir və növbəti dinləmədə müəllimin “Niyə belə düşünürsünüz?” tipli suallardan istifadə etdiyi qeydə alınır.

• **Dəyişikliklər qiymətləndirilir**: Tətbiq olunan yeniliklərin şagird iştirakı və tapşırıq icrası kimi göstəricilərə təsiri analiz edilir.
Alətlər: şagird iştirak müşahidə forması, tapşırıq icrası üzrə qısa analiz, müəllim refleksiya qeydləri.

Dövri dərsdinləmə həm fərdi müəllim inkişafına, həm də məktəb səviyyəsində metodik boşluqların müəyyənləşdirilməsinə xidmət edir. Toplanan məlumatlar əsasında hədəfli metodik görüşlər, daxili təlimlər və seminar mövzuları planlaşdırılır

**Nəticə**

Aparılan təhlil göstərir ki, dərsdinləmə müasir metodik xidmətin əsas dayaqlarından biri kimi müəllimlərin peşəkar inkişafının sistemli şəkildə təşkili üçün mühüm mexanizm rolunu oynayır. Dərs prosesinin planlı müşahidəsi, müşahidələrə əsaslanan təhlil və inkişafyönümlü rəyin verilməsi müəllim fəaliyyətinin təkmilləşdirilməsini təmin etməklə yanaşı, təlim-tədris prosesinin keyfiyyətinə birbaşa təsir göstərir.

Metodistin dərsdinləmə prosesində oynadığı aparıcı rol müəllimlərin real ehtiyaclarının müəyyənləşdirilməsinə, fərdiləşdirilmiş metodik dəstəyin göstərilməsinə və peşəkar dialoqun formalaşmasına şərait yaradır. Eyni zamanda, direktor və direktor müavinlərinin bu prosesə strateji yanaşma ilə cəlb olunması məktəb səviyyəsində qəbul edilən qərarların real dərs müşahidələrinə əsaslanmasını təmin edir, qısa və orta müddətli inkişaf hədəflərinin müəyyənləşdirilməsinə imkan yaradır və məktəbdaxili idarəetmənin effektivliyini artırır.

Dərsdinləmənin dövri və davamlı xarakter daşıması inkişaf prosesinin izlənilə bilən və ölçüləbilən olmasına zəmin yaradır. Bu yanaşma rəyin təsirini qiymətləndirməyə, tətbiq olunan dəyişikliklərin nəticələrini təhlil etməyə və müəllimin inkişaf trayektoriyasını ardıcıl şəkildə qurmağa imkan verir. Dövri müşahidələr nəticəsində əldə olunan məlumatlar məktəb üzrə metodik boşluqların müəyyənləşdirilməsinə, hədəfli metodik görüşlərin və daxili təlimlərin planlaşdırılmasına əsas yaradır.

Bununla yanaşı, metodik xidmət çərçivəsində tətbiq olunan **“Müəllim İnkişaf Portalı”** dərsdinləmə prosesinin rəqəmsal mühitdə sistemləşdirilməsini, rəyvermə və öyrənmə ehtiyaclarının vahid platformada izlənilməsini təmin edərək metodik dəstəyin səmərəliliyini artırır. Portalın mərhələli şəkildə genişləndirilməsi isə metodik xidmətin ölkə üzrə vahid standartlar əsasında təşkili və tədris keyfiyyətinin davamlı yüksəldilməsi baxımından mühüm perspektivlər açır.

Beləliklə, dərsdinləmə metodik prosedur olmaqdan çıxaraq müəllim, metodist və məktəb rəhbərliyi arasında əməkdaşlığa əsaslanan, inkişafyönümlü və nəticəyönlü bir sistem kimi formalaşır. Bu sistemin düzgün tətbiqi məktəbdə öyrənən mühitin möhkəmlənməsinə, təlim-tədris prosesinin keyfiyyətinin yüksəlməsinə və şagird nailiyyətlərinin davamlı şəkildə yaxşılaşmasına şərait yaradır.

**Ədəbiyyat siyahısı**

1.Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2021). Müəllimin peşəkar inkişafı üzrə fəaliyyət çərçivəsi. Bakı.
2.Day, C. (1999). Developing Teachers: The Challenges of Lifelong Learning. London: Falmer Press.
3.Danielson, C. (2007). Enhancing Professional Practice: A Framework for Teaching (2nd ed.). ASCD.
4.OECD. (2019). Teaching and Learning International Survey (TALIS): Insights and Interpretations. Paris: OECD Publishing.
5.Petty, G. (2009). Evidence Based Teaching: A Practical Approach. Oxford: Oxford University Press.
6.Brookfield, S. D. (2017). Becoming a Critically Reflective Teacher (2nd ed.). San Francisco: Jossey-Bass.
7.Mertler, C. A. (2016). Action Research: Improving Schools and Empowering Educators (5th ed.). SAGE Publications.

**Müəllif**

Balayeva Səbinə Raqub qızı
ARTİ – MDM
Metodik xidmətin əlaqələndirilməsi şöbəsinin müdiri